LDU
1 9 9 2
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

# Doğumunun 800-cü İlində Şeyx Zahid Gilani Beynəlxalq Simpoziumunun Materialları

13-15 Dekabr 2018

Lənkəran

# Doğumunun 800. Yılında Şeyh Zahid Gîlânî Uluslararası Sempozyumu Bildirileri

13-15 Aralık 2018

Lenkeran

# Proceedings of International Symposium Sheikh Zahid Gilani in the 800th Year of His Birth

13-15 December 2018

Lankaran

Doğumunun 800-cü İlində Şeyx Zahid Gilani Beynəlxalq Simpoziumunun Materialları 13-15 Dekabr 2018 Lənkəran

L D U
1 9 9 2
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

ISBN: 978-6-25001-217-8
9 786250 012178

**Doğumunun 800-cü İlində Şeyx Zahid Gilani Beynəlxalq Simpoziumunun Materialları**

**13-15 Dekabr 2018**

**Lənkəran**

**Doğumunun 800. Yılında Şeyh Zahid Gîlânî Uluslararası Sempozyumu Bildirileri**

**13-15 Aralık 2018**

**Lenkeran**

**Proceedings of International Symposium Sheikh Zahid Gilani in the 800th Year of His Birth**

**13-15 December 2018**

**Lankaran**

LDU
1992
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

**Elmi Redaktorlar / Bilimsel Editörler / Scientific Editors**
Ahmet Taşğın
Dilavər Əzimli
Namiq Musalı
Zaur Məmmədov

**Qeyd**
Kitabda yer verilən məruzə mətnlərinin müəlliflik hüququ qorunur.
İstifadə zamanı istinad verilməsi zəruridir.
Materialların məsuliyyəti müəlliflərə aiddir.

**Not**
Kitapta yer alan tebliğ metinlerinin telif hakları saklıdır.
Yararlanılma durumunda atıfta bulunulması gerekmektedir.
Bildirilerin sorumluluğu yazarlarına aittir.

**Note**
Copyrights to the texts of reports in the book are protected.
In case of use, it is necessary to refer.
The authors are responsible for the papers.

**Nəşr Yeri / Yayın Yeri / Place of Publication**
Türkiyə Respublikası / Türkiye Cumhuriyeti / Republic of Türkiye

**Nəşr Forması / Yayın Şekli / Publication Form**
E-kitab / E-kitap / E-book

**Yayın Yılı:** 2023

**ISBN:** 978-6-25001-217-8

Edeb Erkan dergisi ekibi tarafından yayına hazırlanmıştır.



05.12.1959 03.03.2021

Doç. Dr. Dilavər Əzimli anısına...

# Mündəricat / İçindekiler / Contents

**Redaktorlarin Ön Sözü** ....................................VII

**Editörlerin Önsözü** ..........................................VIII

**Editors' Foreword** ............................................IX

**Komitələr**

**Kurullar**

**Boards** ...............................................................XI

**Proqramda Yer Alan İştirakçılar**

**Programda Yer Alan Katılımcılar**

**Participants According to Program** ..............XII

**Beynəlxalq Simpozium Materialları**

**Uluslararası Sempozyum Bildirileri**

**Proceedings of International Symposium** ..XV

ŞEYX ZAHİD HAQQINDA YENİ BİR QAYNAQ: MƏNAQİBİ-ŞEYX ZAHİD GİLANİ

**Namiq Musalı** .....................................................1

SAFVETÜ'S-SAFÂ NASIL BİR İBRAHİM ZÂHİD GÎLÂNÎ PORTRESİ ÇİZİYOR?

**Süleyman Gökbulut** .......................................15

NURBAKHSCH QAHISTANI SOWIE SCHEICH ZAHED UND ANDERE ASERBAIDSCHANISCHE SUFIS IN QAHISTANIS WERK SILSILAT UL-AWLIYA

**Uğurcan Asku**

**Veysal Bayram Ali**

**Alcan Cafer** ....................................................25

ŞEYX HÜSEYN BİN ŞEYX ABDAL ZAHİDİ VƏ ONUN "SİLSİLƏTÜN-NƏSƏB-İ SƏFƏVİYYƏ" ADLI ƏSƏRİ HAQQINDA

**Zabil Bayramlı** ................................................33

HÜLVİNİN "LƏMƏZAT-I HÜLVİYYƏ ƏZ LƏMƏAT-I ÜLVİYYƏ" ƏSƏRİNDƏ ŞEYX ZAHİD-İ GİLANİ VƏ DÖRD ƏSAS XƏLİFƏSİ

**Bilal Dədəyev** ................................................45

ŞEYX SƏFİNİN ƏCDADI XOLDE-BƏRİN (CƏNNƏTİN ÜST TƏBƏQƏSİ) ƏSƏRİNDƏ

**Araş İftixari**

**Məhəmmədbaqir Purmuxtari** ........................53

İRANDA DİN VƏ MƏZHƏB FƏXRƏDDİN ŞÖVKƏTİN TƏSVİRİNDƏ

**İradə Məmmədova** ........................................65

AZƏRBAYCAN MƏDƏNİYYƏTININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ ŞEYX TACƏDDİN İBRAHİM ZAHİD GİLANİ

**Müşfiq Bayramov**

**Kamal Mahmudov** ...........................................77

ŞEYX ZAHİD GİLANİ

**Aqşin Mistanlı (Əliyev)** ..................................87

ŞEYX ZAHİD TÜRBƏSİ

**Zaur Məmmədov**

**İldırım Şükürzadə** .........................................105

AZƏRBAYCANIN CƏNUB-ŞƏRQ REGİONUNDA AŞKARLANMIŞ XIII-XIV ƏSRLƏRƏ AİD SİKKƏ DƏFİNƏLƏRİ

**Mayis Cəfərov** ..............................................109

AZƏRBAYCAN RESPUBLİKASININ CƏNUB-ŞƏRQ BÖLGƏSİNİN ORTA ƏSRLƏR DÖVRÜNÜN DİNİ ZİYARƏT YERLƏRİNƏ DAİR

**Rakif İbadov** ...................................................115

LƏNKƏRAN BÖLGƏSİ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ OCAQLARINDAN BİRİ KİMİ (XIII-XV ƏSRLƏR)

**Xeyirbəy Qasımov** .........................................125

LƏNKƏRAN BÖLGƏSİNİN ORTA ƏSRLƏR TARİXİNƏ DAİR

**Tofiq Nəcəfli** ..................................................131

AXUNDZADƏ MİRZƏ İSMAYIL QASİR: MƏNŞƏYİ, TƏVƏLLÜDÜ VƏ VƏFATI TARİXLƏRİNƏ YENİ BAXIŞ

**Tufan Axundov** .............................................145

RUSİYA İMPERİYASI DÖVRÜNDƏ LƏNKƏRAN BÖLGƏSİNDƏ DİN VƏ CƏMİYYƏT

**Mübariz Ağalarlı** ............................................153

SUFİLİK SİSTEMİNDƏ XÜRRƏMİLİK

**Həyat Şamıyeva** ............................................159

TƏSƏVVÜFİ-İRFANİ DÜŞÜNCƏ SİSTEMİNDƏ "HƏZRƏT ƏLİ" KONSEPTİ: EPİK-İRFANI KODUN FUNKSİONAL STRUKTURU

**Seyfəddin Rzasoy** ........................................169

ŞEYH İBRAHIM ZÂHİD-İ GÎLÂNÎ'NIN İRFAN MEKTEBİNİN TAKİPÇİLERİNDEN KASTAMONULU ŞEYH ŞA'BÂN-I VELÎ

**Cevdet Yakupoğlu** ........................................175

AZƏRBAYCANIN CƏNUB-ŞƏRQ BÖLGƏSİNDƏ ŞEYX ZAHİD ƏNƏNƏLƏRİNİN BƏZİ DAVAMÇILARI

**Dilavər Əzimli** ..................................................191

BİR OCAĞIN İKİ QOLU: SƏFƏVİYYƏ VƏ XƏLVƏTİYYƏ

**Fərəh Hüseyn** ...............................................205

DARÜLİRŞAD ƏRDƏBİL: ŞEYX SƏFİƏDDİN ƏRDƏBİLİ ZAVİYƏSİNİN QURULMASININ SƏBƏBLƏRİ VƏ MƏQBƏRƏSİNİN İNKİŞAFI

**Həsən Yusifi**

**Məlikə Gülmuğanizadə Əsl** ...........................217

ŞEYX CÜNEYD TÜRBƏSİNİN TARİXİ

**Elnur Nəciyev**

**Günay Nəciyeva** ..........................................223

AZERBAIJAN AS THE ARENA OF KHORASAN MORAL TRADITIONS FROM TURKESTAN TO THE BALKANS: THE WISDOM OF KHORASAN AND THE VOYAGES OF ITS REPRESENTATIVES

**Esra Doğan Turay**

**Esin Hüdaverdi**

**Sultanmurat Abzhalov**..................................233

AZERBAYCAN HALK KÜLTÜRÜNÜN ORTAYA ÇIKARILMASINDA YENİ YAKLAŞIMLAR: KENDİNİ BİLEN RABBİNİ BİLİR

**Ahmet Taşğın**

**Öner Atay**

**Hakkı Taşğın** .................................................237

ŞEYX ZAHİD GİLANİ VƏ ZAHİDİYYƏ TƏRİQƏTİNDƏ ÖZÜNÜDƏRKİN İNTROSPEKTİV TƏHLİLİ

**Şahin Mehrəliyev** .........................................243

ŞEYX SƏFİƏDDİN İSHAQ ƏRDƏBİLİ VƏ SUFİ GÖRÜŞLƏRİ

**Şahlar Şərifov** ...............................................253

**Beynəlxalq Simpozium Fotoşəkilləri**

**Uluslararası Sempozyum Fotoğrafları**

**Photos of International Symposium** ...........263

# Redaktorlarin Ön Sözü

Məlum olduğu kimi, Azərbaycanın Lənkəran bölgəsi tarix ərzində yetişdirdiyi elm, mədəniyyət, ədəbiyyat və sənət adamları ilə Azərbaycanın və ümumiyyətlə İslam coğrafiyasının mühüm mədəniyyət mərkəzlərindən biri olmuşdur. Tariximizdə əhəmiyyətli rol oynamış bu şəxsiyyətlərin həyat və fəaliyyətlərinin araşdırılması və gənc nəsillərə ötürülməsi alimlər olaraq bizim üzərimizə düşən lazımlı vəzifələrdəndir. Lənkəranın yetişdirdiyi elm və hikmət sahiblərindən biri də Mövlana Cəlaləddin Rumi ilə eyni dövrdə, XIII əsrdə yaşamış olan məşhur müdrik Şeyx Zahid Gilanidir. Tam adı Şeyx Tacəddin İbrahim Zahid Gilani olan bu şəxs 1218-ci ildə Lənkəranın Siyavrud (indiki Siyavar) kəndində doğulmuş və 1301-ci ildə vəfat etmişdir. Türbəsi Lənkəranın Hilyəkaran (indiki Şıxakəran) kəndindədir. İranın Gilan əyalətində də Şeyx Zahidin məqamları mövcuddur. Türbəsi Lənkəranda əsrlər boyu xalqın ziyarət yeri olan şeyxin mistik həyatının və mənəviyyatının bərəkəti Azərbaycan və İranla məhdudlaşmamış, Anadoluya və hətta Balkan yarımadasına qədər çatmışdır. Belə ki, Şeyx Zahid Xəlvətiyyə, Səfəviyyə, Bayramiyyə, Cəlvətiyyə və s. kimi bir çox sufi təriqətinin irşad silsilələrində yer tutmaqdadır.

Azərbaycan, Türkiyə, İran və həmçinin Qərb ölkələrində Şeyx Zahidin kəramətləri, nəsihətləri, öyüdləri, bəyanları və kəlamları haqqında qaynaqlara əsaslanan müxtəlif tədqiqatlar aparılmışdır. Şeyx Zahidin doğumunun 800-cü ilində xatirəsinin anılması məqsədilə onun mənəvi irsini öyrənən alimləri bir araya gətirilməklə fikir mübadiləsi aparılmasının, ortaya çıxan son tapıntıları paylaşmağın və gələcək tədqiqatlar üçün yeni bir üfüq açılmasının lazım olduğunu düşündük. Bu məqsədlə 13-15 dekabr 2018-ci il tarixlərində Lənkəran şəhərində Türk İşbirliği ve Koordinasyon Ajansının dəstəyi və Lənkəran Dövlət Universitetinin ev sahibliyi ilə "Doğumunun 800-ci ildə Şeyx Zahid Gilani" mövzusunda beynəlxalq simpozium tərtib etdik. Azərbaycan, Türkiyə, İran, Bolqarıstan və Rusiyadan 60-a yaxın elm xadiminin dəvət edildiyi bu konfransda plenar iclasın ardınca iki müxtəlif salonda məruzələr dinlənildi. "Klassik mənbələrdə Şeyx Zahid", "Şeyx Zahid və xalq ədəbiyyatı", "Müasir tədqiqatlarda Şeyx Zahid", "Şeyx Zahidin həyatı və fəaliyyəti", "Şeyx Zahid mühiti və mədəni irsimiz", "Şeyx Zahid məktəbinin ardıcılları", "Şeyx Zahid ənənələri və Lənkəran bölgəsi" başlıqlı bölmələrdə davam edən konfrans bağlanış iclası ilə sona çatdı. Tədbirdən sonra Şeyx Zahid və Seyid Cəmaləddin türbələri başda olmaqla Lənkəran-Astara bölgəsinin tarixi yerləri ziyarət edildi.

Konfransdan keçən müddət ərzində ortaya çıxan müəyyən çətinliklər və xüsusən də, dünyanı bürümüş pandemiya fəlakəti üzündən materialların nəşr edilməsi yubandı. Simpoziumun araya-ərsəyə gəlməsində böyük xidmətləri olmuş möhtərəm həmkarımız Dilavər Əzimlinin vaxtsız vəfatı bu prosesə olduqca mənfi təsir göstərdi və hamımızı dərin kədərə qərq etdi. Dilavər müəllim Haqqın rəhmətinə qovuşmazdan öncə bu topluda yer alan məqalələrin bir qismini toplayaraq nəzərdən keçirmiş və redaksiya heyətinə təqdim etmişdi. Bəzi məruzələrin mətnləri isə daha sonra əldə edildi. Təəssüf ki, simpoziumda öz məruzələri ilə iştirak edən çıxışçıların heç də hamısının məqalələrini toplamaq mümkün olmadı. Ancaq yenə də əldə olan məqalələri sistemləşdirərək, Şeyx Zahid simpoziumunun materiallar toplusunu hazırlayıb oxuculara təqdim etməyin faydalı olacağı qənaətinə gəldik. Simpozium kitabına daxil ediləcək məqalələr üçün yazı qaydalarını əvvəlcədən müəyyənləşdirib elan etməyimizə baxmayaraq, bəzi müəlliflərin bu standartlardan kənara çıxdıqlarını müşahidə etdik. Lakin, əsas etibarilə, müəlliflərin şəxsi seçimi olan üsluba toxunmamağı qərara aldıq.

Topluda yer verilən məqalələrin tədqiqatçılar və geniş oxucu kütləsi üçün faydalı olacağını ümid edir və müəlliflərə gələcək fəaliyyətlərində uğurlar arzu edirik.

# Editörlerin Önsözü

Belli olduğu üzere Azerbaycan'ın Lenkeran bölgesi, tarih boyunca yetiştirmiş olduğu ilim, kültür, edebiyat ve sanat adamları sayesinde Azerbaycan'ın ve genel olarak İslâm coğrafyasının mühim medeniyet merkezlerinden biri olmuştur. Tarihimizde önemli rol oynamış olan bu şahsiyetlerin hayat ve faaliyetlerinin araştırılması ve genç kuşaklara aktarılması, bilim insanları olarak bizim üzerimize düşen elzem vazifelerdendir. Lenkeran'ın yetiştirmiş olduğu ilim ve hikmet sahiplerinden biri de Mevlana Celaleddin Rûmî ile aynı dönemde, XIII. yüzyılda yaşamış olan ünlü bilge Şeyh Zâhid Gîlânî'dir. Tam adı Şeyh Taceddin İbrahim Zâhid Gîlânî olan bu şahıs, 1218 yılında Lenkeran'ın Siyavrud (şimdiki Siyavar) köyünde doğmuş ve 1301 yılında vefat etmiştir. Türbesi Lenkeran'ın Hilyekeran (şimdiki Şıhakeran) köyündedir. İran'ın Gilan eyaletinde de Şeyh Zâhid'in makamları mevcuttur. Türbesi Lenkeran'da asırlar boyunca halkın ziyaret yeri olan şeyhin mistik yaşamı ve maneviyatı Azerbaycan ve İran'la sınırlı kalmamış, Anadolu'ya ve hatta Balkanlara kadar ulaşmıştır. Şöyle ki Şeyh Zâhid; Halvetiyye, Safeviyye, Bayramiyye, Celvetiyye vs. gibi birçok sufi tarikatının irşat silsilelerinde yer almaktadır.

Azerbaycan, Türkiye ve İran'da, ayrıca Batılı ülkelerde Şeyh Zâhid'in kerametleri, nasihatları, öğütleri, beyanları ve kelamları üzerine kaynaklara dayanan değişik araştırmalar yürütülmüştür. Şeyh Zâhid'in doğumunun 800. yılında hatırasının anılması maksadıyla onun manevi mirasını öğrenen bilim insanlarını bir araya getirmek suretiyle fikir alış verişinde bulunmayı, ortaya çıkarılan son bulguları paylaşmayı ve gelecek çalışmalar için bir ufuk açmayı gerekli bulduk. Bu amaçla 13-15 Aralık 2018 tarihlerinde Lenkeran şehrinde Türk İşbirliği ve Koordinasyon Ajansı'nın desteği ve Lenkeran Devlet Üniversitesi'nin ev sahipliği ile Doğumunun 800. Yılında Şeyh Zâhid Gîlânî konulu uluslararası sempozyum düzenledik. Azerbaycan, Türkiye, İran, Bulgaristan ve Rusya'dan 60'a yakın bilim insanının davet edildiği bu sempozyumda açılış konuşmalarının ardından iki değişik salonda bildiriler dinlenildi. "Klasik kaynaklarda Şeyh Zâhid", "Şeyh Zâhid ve halk edebiyatı", "Modern araştırmalarda Şeyh Zâhid", "Şeyh Zâhid'in hayatı ve faaliyeti", "Şeyh Zâhid muhiti ve kültürel mirasımız", "Şeyh Zâhid ekolünün ardılları", "Şeyh Zâhid gelenekleri ve Lenkeran bölgesi" başlıklı oturumlarla devam eden sempozyum, kapanış oturumuyla sona erdi. Etkinliğin ardından Şeyh Zâhid ve Seyyid Cemaleddin türbeleri başta olmak üzere Lenkeran-Astara bölgesinin tarihî mekânları ziyaret edildi.

Sempozyumdan geçen süre zarfında ortaya çıkan bazı sorunlar ve özellikle de dünyayı saran pandemi felaketi yüzünden bildirilerin neşri gecikti. Sempozyumun düzenlenmesinde büyük hizmetleri bulunan muhterem meslektaşımız Dilaver Azimli'nin zamansız vefatı bu süreci oldukça olumsuz bir biçimde etkiledi ve hepimizi kedere boğdu. Dilaver Hoca, Hakkın rahmetine kavuşmazdan önce bu mecmuada yer alan bildirilerin bir kısmını toplayarak gözden geçirmiş ve editör kuruluna takdim etmişti. Bazı bildirilerin metni ise daha sonra elde edildi. Maalesef sempozyumda sunum yapmış olan konuşmacıların hiç de tamamının bildirilerini toplamak mümkün olmadı. Ancak yine de elimizde olan tebliğleri bir sistem haline getirmek suretiyle Şeyh Zâhid Sempozyumu'nun bildiriler kitabını hazırlayarak okuyuculara sunmanın faydalı olacağı kanaatine geldik. Sempozyum kitabına alınacak bildiriler için yazım kurallarını önceden belirleyerek ilan etmemize rağmen bazı yazarların bu standartlardan kenara çıktığını gözlemledik. Fakat esas itibarıyla yazarların kişisel tercihi olan üsluba dokunmamayı karar verdik.

Kitapta yer verilen bildirilerin araştırmacılar ve geniş okuyucu kitlesi için yararlı olacağını umut eder ve yazarlara gelecek faaliyetlerinde başarılar dileriz.

# Editors' Foreword

As we know, Lankaran region has been one of the important cultural centers of Azerbaijan and Islamic geography in general with the people of science, culture, literature and art that were trained throughout the history. To research the lives and activities of these personalities who played an important role in our history and convey them to younger generations is one of our necessary tasks as scientists. One of the scientists of Lankaran is the famous sage Sheikh Zahid Gilani, who lived in the same period with Maulana Jalaladdin Rumi, in the 13th century. Sheikh Tajaddin Ibrahim Zahid Gilani, was born in 1218 in Siyavrud village (now Siyavar) of Lankaran and died in 1301. His tomb is in Hilyakaran village (now Shikhakaran) of Lankaran. There are also places of Sheikh Zahid in Gilan province of Iran. The blessing of the mystical life and spirituality of the sheikh, whose tomb has been a place of pilgrimage for centuries in Lankaran, was not limited to Azerbaijan and Iran, but also reached Anatolia and even the Balkan Peninsula. Thus, Sheikh Zahid is included in the irshad series of many Sufi sects like Khalvatiya, Safaviya, Bayramiya, Jalvatiya and etc.

Various researches based on sources about the miracles, advices, reminders, declarations and sayings of Sheikh Zahid have been conducted in Azerbaijan, Türkiye, Iran and also in Western countries. In order to commemorate the 800th anniversary of Sheikh Zahid's birth, we thought that it was necessary to bring together scholars who study his spiritual heritage, exchange ideas, share the latest findings and open a new horizon for the future research. For this purpose, on December 13-15, 2018, in Lankaran, with the support of the Turkish Cooperation and Coordination Agency and the hosting of the Lankaran State University, we organized an international symposium on the topic "Sheikh Zahid Gilani on the 800th anniversary of his birth". At this conference, in which about 60 scientists from Azerbaijan, Türkiye, Iran, Bulgaria and Russia were invited, reports were heard in two different halls after the plenary session. The ongoing conference on sections titled "Sheikh Zahid in classical sources", "Sheikh Zahid and folk literature", "Sheikh Zahid in modern research","Life and activities of Sheikh Zahid", "Sheikh Zahid environment and our cultural heritage", "Followers of the school of Sheikh Zahid", "Traditions of Sheikh Zahid and Lankaran region" conference ended with the closing session. After the event, the historical places of Lankaran-Astara region were visited, including the tombs of Sheikh Zahid and Seyid Jamaladdin.

The publication of the materials was delayed due to certain difficulties that arose during the period of the conference and, in particular, due to the pandemic disaster that spread around the world. The untimely death of our esteemed colleague Dilavar Azimli, who contributed greatly to the creation of the symposium, had a negative impact on this process and deeply saddened all of us. Before passing away, Dilavar Azimli collected and reviewed some of the articles in this collection and presented them to the editorial board. The texts of some reports were obtained later. Unfortunately, it was not possible to collect the articles of all the speakers who participated in the symposium with their reports. However, we came to the conclusion that it would be useful to systematize the available articles and prepare a collection of materials of the Sheikh Zahid symposium and present it to the readers. Although we pre-defined and announced the writing rules for articles to be included in the symposium book, we observed that some authors deviated from these standards. But, basically, we decided not to touch the style, which is a personal choice of the authors.

We hope that the articles included in the collection will be useful for researchers and the wide readership and we wish the authors success in their future endeavors.

Beynəlxalq Simpozium Materialı / Uluslararası Sempozyum Bildirisi / Proceeding of International Symposium https://doi.org/10.59402/EES01201823

# ŞEYX CÜNEYD TÜRBƏSİNİN TARİXİ

## Şeyh Cüneyd Türbesi'nin Tarihi

## The History of Mausoleum of Sheikh Juneyd

**Elnur Nəciyev**
Sorumlu Yazar / Correspondence
**Günay Nəciyeva**

### Xülasə

Xalqımızın dövlətçilik tarixinin ən şanlı səhifələrindən olan Səfəvi imperiyası təkcə Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində, beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm rol oynamışdır. Səfəvilər dövləti yarandığı gündən qısa müddət ərzində bütün Yaxın və Orta Şərqdə qüdrətli hərbi-siyasi amilə çevrilmişdi. Şah İsmayılın yaratdığı Azərbaycan Səfəvi dövləti Azərbaycan türklərinin dünyagörüşünün təkamülünə, öz-özünü və etnosiyasi məkanın formalaşmasında rolunu yenidən qiymətləndirməyə kömək etmişdi. XVI əsrdə yaranmış Səfəvilər dövlətinin özəyi olan Azərbaycan bu dövlətin yaradıcılarının həm sağlığında, həm də ölümündən sonra yurd yeri olmuşdur. Bu gün Azərbaycanın Güneyində yerləşən Şeyx Səfi kompleksi və Şah İsmayıl məqbərəsi Ərdəbilin simvolu hesab olunursa, Şimali Azərbaycanın tarixi Şirvan ərazisində yerləşən Şeyx Cüneyd (1447-1460) və Şeyx Heydər (1460-1488) türbələri də eyni statusu daşıyacaq əhəmiyyətə malikdir. Lakin təəssüflər olsun ki, bu abidələrə bəslənən laqeyd münasibət sonuncunun uçulub dağılmasına, Şeyx Cüneyd türbəsinin isə baxımsızlıqdan əziyyət çəkməsinə səbəb olmuşdur. Məqaləmizin mövzusu da məhz bu türbələrdən biri olan Şeyx Cüneyd abidəsinin tarixi, o cümlədən də şeyxin şəxsiyyəti və fəaliyyəti barədədir. Şeyx Cüneyd türbəsi bu gün Qusarın Həzrə kəndində yerləşir. Məqalədə həm bu türbənin tarixinə, həm də onun aid olduğu şəxsiyyətin həyat yoluna vətən, türk, ingilis, və rus dilli tarixşünaslıq əsasında nəzər salınır. Şeyx Cüneydə qədər Ərdəbil şeyxlərindən heç biri siyasi hakimiyyət qurmağa cəhd etməmişdi. Məhz onun şeyxliyi zamanında Ərdəbil ocağı səlatin qılığını, yəni sultanlıq libasını mənimsəyərək siyasi hakimiyyət qurmaq yoluna qədəm qoydu. Aparılan tədqiqatın gedişində aydın olur ki, məhz bu məqsədə çatmaq üçün istər, Şeyx Cüneydin, istərsə də oğlu Şeyx Heydərin ilkin hədəf kimi Şirvanı seçmələri heç də təsadüf olmayıb. Onların məqsədi Azərbaycan torpaqlarını, o cümlədən də Şirvanı ehtiva edən vahid bir dövlət yaratmaq idi. Sağlıqlarında bu istəklərinə nail ola bilməsələr də Şirvan torpağında dəfn edilmələr ilə əslində xələfləri Şah I İsmayılın və Şah I Təhmasibin gələcəkdə vahid bir Azərbaycan dövləti qurmalarına vəsilə ola biliblər.

**Açar Sözlər:** Səfəvilər, Ərdəbil, Şeyx Cüneyd, Həzrə, Mütəvəlli.

### Özet

Milletimizin devletçilik tarihinin en şanlı sayfalarından biri olan Safevi İmparatorluğu, sadece Azerbaycan'ın, Güney Kafkasya'nın değil, aynı zamanda tüm Yakın ve Orta Doğu'nun devletçilik tarihinde, uluslararası ilişkilerinde ve askeri-siyasi hayatında önemli rol oynamıştır. Safevi devleti kısa sürede tüm Yakın ve Orta Doğu'da güçlü bir askeri ve siyasi faktör haline geldi. Şah İsmail tarafından kurulan Azerbaycan Safevi devleti, Azerbaycan Türklerinin dünya görüşünün gelişmesine, kendilerini ve etno-siyasi alanın oluşumundaki rollerini yeniden değerlendirmelerine yardımcı oldu. 16. yüzyılda kurulan Safevi devletinin esasını oluşturan Azerbaycan, bu devletin kurucularının hem yaşamları boyunca, hem de vefatlarından sonra vatanı olmuştur. Günümüzde Azerbaycan'ın güneyinde bulunan Şeyh Safi külliyesi ve Şah İsmail türbesi Erdebil'in sembolleri olarak kabul edilirken, tarihi Şirvan bölgesinde bulunan Şeyh Cüneyd (1447-1460) ve Şeyh Haydar'ın (1460-1488) türbeleri de Kuzey Azerbaycanda aynı öneme sahiptir. Ne yazık ki bu anıtlara karşı gösterilen ilgisiz

tutum, bu anıtların havaya uçurulmasına ve yok edilmesine, Şeyh Cüneyd'in türbesinin bakımsız kalmasına neden olmuştur. Makalemizin konusu bu türbelerden biri olan Şeyh Cüneyd anıtının, şeyhin kişiliği ve faaliyetlerini kapsayan tarihidir. Bugün Şeyh Cüneyd'in türbesi Kusar'ın Hazra köyünde bulunmaktadır. Makalede hem bu türbenin tarihi hem de ait olduğu şahsın hayat yolu Türk, İngiliz ve Rus tarih yazıcılığı esas alınarak incelenmektedir. Şeyh Cuneyd'e kadar Erdebil şeyhlerinden hiçbiri siyasi iktidar kurmaya çalışmamıştır. Onun şeyhliği döneminde Erdebil ocağı saltanat kisvesini yani saltanat cübbesini benimsemiş ve siyasi iktidarı kurma yoluna girmiştir. Yapılan araştırmalar sırasında Şeyh Cüneyd ve oğlu Şeyh Haydar'ın bu hedefe ulaşmak için öncelikli hedef olarak Şirvan'ı seçmelerinin tesadüf olmadığı ortaya çıkıyor. Amaçları Şirvan dahil Azerbaycan topraklarını kapsayan tek bir devlet yaratmaktı. Sağlıklarında bu isteklerini yerine getiremeseler de aslında Şirvan topraklarına gömülerek halefleri Şah İsmail ve Şah I Tahmasib'in gelecekte birleşik bir Azerbaycan devleti kurmasına yardımcı olmuşlardır.

**Anahtar Kelimeler:** Safeviler, Erdebil, Şeyh Cüneyd, Hazra, Mütevelli.

**Abstract**

The Safavid Empire, which is one of the most glorious pages in the history of the statehood of our nation, played an important role in the statehood history, international relations, and military-political life not only of Azerbaijan but also of the South Caucasus as a whole, as well as the entire Near and Middle East. The Safavid state became a powerful military and political factor in the entire Near and Middle East within a short period of time. The Safavid state of Azerbaijan, created by Shah Ismail, helped the evolution of the worldview of the Azerbaijani Turks by reassessing themselves and their role in the formation of the ethno-political space. Azerbaijan, the core of the Safavid state, which was founded in the 16th century, was the home of the founders of this state both during their lifetime and after their deaths. Today, the Sheikh Safi complex and the Shah Ismail mausoleum located in the south of Azerbaijan are considered symbols of Ardabil, while the tombs of Sheikh Junayd (1447–1461) and Sheikh Heydar (1460–1488) located in the historical Shirvan area of Northern Azerbaijan have the same importance. Unfortunately, the indifferent attitude towards these monuments has caused the latter to be blown up and destroyed, and the tomb of Sheikh Junayd has suffered from neglect. The subject of our article is the history of one of these tombs, the Sheikh Junayd monument, including the personality and activities of the sheikh. Today, the tomb of Sheikh Junayd is located in Hazra village in Gusar. In the article, both the history of this tomb and the life path of the person it belongs to are reviewed based on Turkish, English, and Russian historiography. Until Sheikh Juneyd, none of the sheikhs of Ardabil tried to establish political power. It was during his sheikhship that the Ardabil hearth adopted the guise of the sultanate, i.e., the robe of the sultanate, and embarked on the path of establishing political power. In the course of the conducted research, it became clear that it was no coincidence that Sheikh Junayd and his son, Sheikh Heydar, chose Shirvan as the primary target to achieve this goal. Their goal was to create a single state that included the lands of Azerbaijan, including Shirvan. Although they could not achieve these wishes in their health, they were actually able to help their successors, Shah Ismayil and Shah I Tahmasib, establish a unified Azerbaijan state in the future by being buried in the land of Shirvan.

**Keywords:** Safavid, Ardabil, Sheikh Juneyd, Khazra, Trustee.

## Giriş

XVI əsrdə yaranmış Səfəvilər dövlətinin özəyini təşkil edən Azərbaycan bu dövlətin yaradıcılarının həm sağlığında, həm də ölümündən sonra yurd yeri olmuşdur. Bu gün Cənubi Azərbaycanda yerləşən Şeyx Səfi kompleksi və ora daxil olan Şah İsmayıl məqbərəsi Ərdəbilin simvolu hesab olunursa, Şimali Azərbaycanın tarixi Şirvan ərazisində yerləşən Şeyx Cüneyd (1447-1460) və Şeyx Heydər (1460-1488) türbələri də eyni statusu daşıyacaq əhəmiyyətə malikdir. Bu abidələrin qorunub

saxlanılması və gələcək nəsillərə ötürülməsi hər birimizin borcudur. Ərdəbildəki abidələrin qorunması məsələsində hər hansı bir problem yaşanmasa da, təəssüflər olsun ki, Şimali Azərbaycandakı türbələrə münasibətdə son illərdə laqeyd yanaşma hiss olunmaqdadır. Qusar rayonun Həzrə kəndində yerləşən Şeyx Cüneyd türbəsi, Xızı rayonunun Tıxlı (Tuğlu) kəndindən 3-4 km şimal-şərqdə, Beşbarmaq dağının arxasında Şıxlar kəndində yerləşən Şeyx Heydər məqbərəsinə nisbətən daha yaxşı vəziyyətdədir. Sonuncunun qəbri üzərində Şah I İsmayıl (1501-1524) tərəfindən sonralar məqbərə ucaldılıb kənd salınsa da Şıxlar (Şeyxlər-E.N.) adlanan kəndin sakinlərinin ərazini tərk etməsindən sonra yaranan baxımsızlıq nəticəsində abidə uçulub dağılmışdır. Həm Şıxlar kəndi, həm də Həzrə kəndi ərazisində yerləşən abidələrin tikilmə üslubu saxlanılmaqla restavrasiya edilməsinə kəskin ehtiyac duyulur. Doğrudur, Şeyx Heydər məqbərəsindən fərqli olaraq Şeyx Cüneyd türbəsi 2007-ci ildə təmir olunmuşdur. Lakin, təmir sonrası abidə ilə tanış olduqda məlum oldu ki, görülən iş abidənin vəziyyətini yaxşılaşdırmaq əvəzinə daha da pisləşdirmişdir. Məqaləmizin mövzusu da məhz 558 il bundan öncə Şirvan yürüşü zamanı həlak olmuş, qəbri üzərində vəfatından 84 il sonra türbə tikilmiş Şeyx Cüneyd abidəsi, şeyxin şəxsiyyəti və fəaliyyəti barədədir.

Azərbaycan tarixinin parlaq səhifələrindən biri olan Səfəvi dövləti öz başlanğıcını XIV əsrdə Ərdəbildə ortaya çıxan Ərdəbil Təkkəsindən götürmüşdür. Osmanlı mənbələrində bu ocağa "Ərdəbiliyyə", onun müridlərinə isə "Ərdəbil sufiləri" deyilirdi [8, 22]. Bu ocağın banisi Şeyx Səfiəddin İshaq Ərdəbili (həyatı: 1252-1334; şeyxliyi: 1301-1334) [12, 130] və onun nəslindən bəhs edərkən akademik V.V. Bartold qeyd edirdi ki,"bu Ərdəbil şeyxləri, şübhəsiz, fars deyil, türk mənşəlidirlər" [3, 748]. İ.P.Petruşevski də eyni fikri söyləmişdi: "İlk Səfəvi şeyxləri Ərdəbildə yaşamışlar, onların doğma dili Azərbaycan dili olmuşdur" [17, 362]. Şeyx Cüneydə qədər Şeyx Səfi, Şeyx Sədrəddin (şeyxliyi: 1334-1392), Xoca Əli (şeyxliyi: 1392-1429) və Şeyx İbrahimdən (şeyxliyi: 1429-1447) ibarət ilk dörd şeyx zamanında Ərdəbil şeyxlərinin siyasətlə birbaşa bağlılıqları olmamış, təkkə dini-təsəvvüf mərkəzi olaraq fəaliyyət göstərmişdir [10, 83]. Ərdəbil dərgahında Şeyx İbrahimin ölümündən sonra təriqətə girmiş olan siyasi təmayüllər, atadan oğula keçən şeyxlik ənənəsini pozmuşdur. Şeyx İbrahimdən sonra ilk dəfə bu məqam uğrunda mübarizə baş verir. Onun altı oğlundan biri olan Cüneydin şeyxlik məqamına oturmalı olduğuna baxmayaraq, şeyxlik uğrunda mübarizədə qalib gələn İbrahimin qardaşı Şeyx Cəfər Ərdəbil dərgahının rəhbəri olur. Bu səbəbdən də Səfiəddin ailəsi daxilində şeyxlik mübarizəsi siyasi bir xarakter almış olur [5, 387].

Bəs Şeyx Cüneyd kim idi? Onun fəaliyyəti hansı səbəbdən bir çoxlarını, o cümlədən də Baharlı hökmdarı Cahanşahı narahat edirdi? Səfəvilər və Osmanlılar dövrünün müxtəlif qaynaqlarının Şeyx Cüneydlə bağlı verdikləri məlumatlara nəzər salmaqla onun şəxsiyyətini daha dolğun dəyərləndirmək və başa düşmək mümkündür. Bayandurlu tarixçisi Fəzlullah ibn Ruzbixan Xunci (ö.927/1521) yazır ki, "şeyxlik sırası Şeyx Cüneydə gəldikdə, o

atalarının həyat tərzini dəyişdirdi: xəyalındakı siyasi ehtiras yenidən dirçəldi. Hər an o, hər hansı ölkəni, yaxud vilayəti işğal etməyə çalışdı" [7, 78]. Şah I Təhmasib (1524-1576) zamanında yaşamış Səfəvi tarixçisi Qazi Əhməd Qəffari (ö.975/1568) isə Səfəvi şeyxlərindən bəhs etdiyi əsərində Şeyx Cüneyddən danışarkən, onun təkkənin simasını dəyişdirdiyini, vilayət ilə məşğul olan bir təkkədə səltənət işlərinə meyllənmə olduğunu yazırdı [10, 88]. Osmanlı tarixçisi Gelibolulu Əli (ö.1008/1600), "Hükümet-i Şahanı Erdebili" başlığı ilə bəhs etdiyi Səfəvi ailəsindən "ilkin olaraq ləşkər cəm edib sevdayi təməllük (dövlət sevdası) edən Şeyx Cüneyddir" deyir. Münəccimbaşı (ö.1114/ 1702), "Sultan Şeyx Cüneyd xəlifə oldu, əba və əcdadı libasını tərk edib səltənət tərzinə daxil oldu". Ərəb tarixçisi Əhməd əl-Kirmani (ö.1019/ 1610), bu ailədən ilk dəfə ortaya çıxan və əsgər toplayan nəfərin Şeyx Cüneyd olduğunu məlumat verirdi [10, 88]. Məhz bu cür baxışlarına və fəaliyyətinə görə, onun əmisi Şeyx Cəfərin şeyx olmasında maraqlı olan Baharlı hökmdarı Müzəffərəddin Cahanşah Həqiqi (1436-1467) hətta qızını onun oğlu Qasimə ərə verməklə Ərdəbil şeyxlərinin nüfuzunu zəiflətməyə çalışırdı. Digər tərəfdən Cahanşah 20 yaşında ikən Səfəviyyə sufi təriqətinin mürşidi olmuş Şeyx Cüneydin şiəlik şüarları altında siyasi iddialarla çıxış etməsindən ehtiyat edirdi. Əslində Şeyx Cüneydin Ərdəbili tərk etməsinə səbəb olan Cahanşahın Ərdəbil dərgahının işlərinə qarışmasını və Şeyx Cüneydi yurdunu tərk etməyə məcbur etməsini təbii olaraq qarşılamaq lazımdır. Çünki Şeyx Cüneydə qədər Ərdəbil şeyxlərindən heç biri siyasi hakimiyyət qurmağa cəhd etməmişdi. Məhz onun pirliyi zamanında Ərdəbil ocağı səlatin qılığını, yəni sultanlıq libasını mənimsəyərək siyasi hakimiyyət qurma hazırlığına qədəm qoymuşdu [11, 23]. Şeyx Cüneydin bu cür fəaliyyətinə qarşı olmasına baxmayaraq Cahanşah onu öldürməklə aradan qaldırmaqdan çəkinir və Şeyx Cəfərə məktub yazaraq onu dövlətindən uzaqlaşdırmaqla yetinməyə çalışırdı [16, 131]. 1449-cu ildə də bu istəyinə nail olur. Təzyiqlərə dözə bilməyən Şeyx Cüneyd Anadoluya pənah aparır. 1449-1456-cı illərdə Cüneyd Anadolunu gəzib-dolaşdı, orada müxtəlif hərbi-siyasi hadisələrin iştirakçısına çevrildi [12, 131]. Gənc və enerjili şeyxin on il boyunca Anadoluda apardığı təbliğat təsirsiz ötüşməmiş, bu regiondakı müxtəlif türk tayfalarının Səfəvi nəslinə bağlılığı daha da qüvvətlənmişdi. F.Sümerin qeyd etdiyi kimi, "Anadolu türklərindən mühüm bir qismini Səfəvi təriqətinə bağlayan Cüneyd olmuşdur" [19, 36]. O, əvvəlcə Osmanlı torpaqlarına gəlir və bir Quran, bir səccadə, bir də təsbeh hədiyyə göndərməklə [16, 131] dərviş heyətini sultan II Murada (1421-1444-I dəfə; 1446-1451-II dəfə) göndərərək, ondan məskən qurub dua və ibadətlə məşğul olmaq üçün Qurd Belini adlanan yerdə ona bir təkyə verilməsini istəyir. Sultan II Murad bunu vəziri Xəlil paşaya danışdıqdan sonra, Xəlil paşa da "Bir məqama yeddi dərviş sığar, lakin dünya qitəsinə iki hökmdar sığmaz" məlum atalar sözünü sultana xatırlatdı. Sultan II Muradda vəzirinin bu sözünə əməl edərək gələn dərvişlərin hər birinə 100, bəzi müəlliflərə görə isə 1000 axça [21, 57] xərclik, Şeyx Cüneydə də 200 florin (200 duka qızıl, yəni 9 min axça) göndərməklə bu təklifi rədd etmişdi [4, 36]. Rədd cavabı aldıqdan sonra 1450-ci ildə Qaraman bəyliyinin paytaxtı olan Konyaya getdi. Konyada hələ

XIII əsrdə Şeyx Sədrəddin Konevi tərəfindən qurulmuş təkyədə qalan Şeyx Cüneyd burada Mevlana Xeyrəddindən dərs alır, Şeyx Muhyiddin Ərəbinin kitabları ilə tanış olur [21, 57]. Bu təkyənin başçısı olan Şeyx Əbdüllətiflə dini-ideoloji müstəvidə mübahisə etmiş və düşüncələrinə görə təzyiqə məruz qaldığına görə oranı tərk etməli olmuşdur. Daha sonra Toros dağlarındakı varsaq türkmənlərinə sığınan Səfəvi şeyxinin təbliğat aparmasından narahat olmuş Qaraman hökmdarı İbrahim bəy onu həbs etmək fikrinə düşdü. Cüneyd tərəfdarları ilə birlikdə Məmlük dövlətinin tərkibindəki İsgəndərun körfəzi sahillərinə qaçdı və oradakı Cəbəl-Arus dağında köhnə bir qalaya sığındı. Burada bir müddət qalan şeyxin başına xeyli müridlər toplaşdı. Məmlük sultanı Çakmak onun həbs edilməsi haqqında Hələb hakiminə təlimat verdi. 1453-cü ildə Hələb hakiminin göndərdiyi qoşunla toqquşmada məğlub olan Cüneyd Qara dəniz sahilindəki Canikə qaçdı [12, 131]. Orada ətrafına müridlərindən ibarət silahlı dəstələr cəmləşdirən şeyx 1456-cı ildə yunanların, əlindəki Trabzon qalasına həmlə etdi. İlkin uğurlarına baxmayaraq, Osmanlı dövlətinin etirazı və üzərinə qoşun göndərməsi səbəbindən Trabzondan əl çəkməli oldu [21, 58]. Ordan Həsən-Keyfə getdi və daha sonra, 1456-cı ilin axırlarında o zamanlar hələ Diyarbəkr hakimi olan Ağqoyunlu Həsənə padşaha sığındı. Bu barədə Namiq Musalı dövrün mənbələrinə istinadən yazır ki, "Diyarbəkir mülkündə Həsən bəy Ağqoyunlu türkman camaatının hakimi idi...Eşitdi ki, Mirzə Cahanşahın vahiməsi üzündən öz vətənindən ayrılan [Cüneyd] onun yanına, Diyarbəkrə gəlməkdədir. Buyurdu ki, el ağsaqqalları atlara minib, onu 2-3 mənzil məsafədən qarşılasınlar və özü də şəxsən qohumları ilə birlikdə atlara süvar olaraq, [Cüneydi] qarşılamaq üçün 1 mənzil yol qət etdi. O, Sultan Cüneydi uzaqdan gördükdə piyada oldu, bir-birilərinə yaxınlaşdılar, qucaqlaşıb görüşdülər. [Həsən bəy] onun müridlərinə xeyli izzət göstərdi və Sultan Cüneyd üç il onun yanında mehman oldu" [13, 100]. Bu müddətdə bayandurlu Həsən padşah Cahanşaha qarşı mübarizədə Səfəvilərin dəstəyini almaqdan ötrü Şeyx Cüneydlə müttəfiqlik münasibətləri yaratdı və öz bacısı Xədicə bəyimi şeyxə ərə verdi [9, 26-27]. Bu nikahın sorağı Kiçik Asiyanın və Suriyanın ən uzaq guşələrinə yayıldı və "əvvəlki şeyxlərin" xəlifələri Cüneydin görüşünə gəldilər [6, 36]. Həsən padşahın Diyarbəkrdəki sarayında üç il qalan Cüneyd "vətən sevgisi imandandır" deyərək Azərbaycana qayıtmağı qərara aldı və Diyarbəkirdən Ərdəbilə doğru yola çıxdı. Cüneydin gəlişi barədə Cahanşaha xəbər verən casuslar həyəcan təbilini çalırdılar: "Sultan Cüneyd Diyarəbəkrə getmiş, Ağqoyunlu Həsən bəy Türkmanın bacısı ilə evlənmiş və onunla qohum olduqdan sonra qüvvəsi daha da artmışdır. İndi isə köçünü yığıb, Ərdəbilə doğru gəlməkdədir" [13, 101]. Cahanşah Cüneydlə savaşmaq üçün ordu toplanmasını əmr etdi. Bu xəbəri alan Cüneyd Ərdəbildə dayana bilməyəcəyini anlayıb, Şirvanşahlar dövlətinə son qoymaq və Şirvanı ələ keçirmək məqsədi ilə yürüşə çıxmağı qərara aldı. Lakin, o, əsl niyyətini açıq elan etmir, Çərkəz nəsranilərinə (xristianlara - E.N.) qarşı cihad etmək istəyində olduğu üçün səfərə çıxdığını bəyan edirdi. Cüneyd "sufilərdən və müridlərdən" ibarət 20 minlik qoşunu ilə birlikdə Araz çayını keçib, Qarabağa getdi və oradan da Kür çayını adlayıb, Şirvana qədəm qoydu.

Cüneydin əmisi Şeyx Cəfər Şirvanşaha məktub yazaraq, qardaşı oğlunun əsl məqsədlərini açıqladı və onun dəf edilməsinin vacib olduğunu bildirdi. Cüneydin "Çərkəz ölkəsinə getmək bəhanəsi ilə Şirvanı tutmağa gəldiyini" öyrənən Şirvanşah Sultan Xəlil (1417-1465) 20 minlik mükəmməl bir ordu hazır etdi. Onun müraciəti əsasında Təbərsəran hakimi Əbül Məsum xan və Cahanşah da onun köməyinə hərəyə 5 minlik qoşun göndərdilər. Müttəfiqlərin 30 minlik birləşmiş ordusu ilə Cüneydin "sufiləri" üz-üzə gəldilər. Gərgin keçən döyüş nəticəsində Səfəvi qoşunu ağır məğlubiyyətə uğradı, Cüneyd isə qətlə yetirildi" [13, 101-102]. Nihat Çetinkaya Qızılbaş türklər adlı əsərində Şeyxin döyüş zamanı Qarasu adlı ərazidə sıxışdırıldığını və buradakı döyüş zamanı öldürüldükdən sonra bir neçə sadiq müridi tərəfindən cəsədinin Kurbal və ya Kumal deyilən bir yerdə dəfn olunduğunu yazırdı [5, 395]. Lakin bu məntəqələrin hazırda hansı ərazilər olması barədə hər hansı bir məlumat yoxdur. Bu adları verərkən belə Nihat Çetinkayanın istinad etdiyi İslam Ensiklopediyasında da bu məlumatın hardan götürülməsinə dair bir istinad yoxdur [20, 124]. Şeyx Cüneydin Şirvan yürüşü zamanı məğlub olaraq qətlə yetirildiyi və dəfn olunduğu ərazi barədə Abbasqulu ağa Bakıxanovun əsərində verdiyi məlumat daha dolğundur. Belə ki, Bakıxanov Gülüstani-İrəm əsərində yazır ki, "Şeyx Cüneyd də öz müridlərinin sayını artırıb səltənət iddiasına başladı. Çərkəzlərə qarşı müharibə etmək fikrilə 10000 nəfər toplayıb Şirvan tərəfinə hərəkət etdi...o, Şirvanı almağa getmişdi. Necə olursa-olsun, şirvanşah Sultan Xəlil Təbərsəran əhalisinin təhrikilə, onun çərkəz tərəfinə getməsinə mane oldu və qoşun toplayıb döyüşə çıxdı. Samur çayının sol sahilində Qıpçaq kəndi yaxınlığında baş verən güclü döyüşdə Şeyx Cüneyd öldürüldü. Onun Səfəvilərdən olan bəzi müridləri cəsədini müharibə meydanından çıxarıb Quba əyalətinin hazırda Həzrə adlanan Gülxan kəndində kəndində torpağa tapşırdılar. Onun nəvəsi I Təhmasib 100 il sonra (əslində 84 il sonra-E.N.) qəbri üzərində ali bir türbə və məscid tikdirmişdir. Asarı indi də mövcud olub, yerli əhalinin ziyarətgahıdır" [1, 92-93].

Həqiqətən də hazırda Qusarın Həzrə adlanan kəndində Şeyx Cüneyd türbəsi yerləşir. Şeyxin burada dəfn olunmasının kəndin adına da təsir göstərməsini mənbələrdən oxuyuruq. Məsələn, Abbasqulu ağa Bakıxanov yazır ki, "Həzrət sözündən dəyişmiş olan Həzrə kəndinin əhalisini, həmin padişah, İrandan Quba vilayətinə köçürüb, öz babası Şeyx Cüneydin qəbri ətrafında yerləşdirmişdir. Bunlar indi, sünni məzhəbində olsalar da, bir məhəllələri hələ də, "Şiələr məhəlləsi" adı ilə məşhurdur" [1, 22]. Hətta Bakıxanov XIX əsrdə türbəyə təyin edilən mütəvəllinin adını da əsərində qeyd edir. O yazır ki, "Hicri 1225-ci (=1810) ildə, il yarımdan artıq Təbərsəranda qalmış Şeyx Əli xan, əcdadı Səfəvilər dovründən Şeyx Cüneyd türbəsinin mütəvəllisi olan həzrəli Xan Butay bəy Hacı Şərif bəy oğlunun təhrikilə gəlib Quba əhalisinin çoxunu özünə müttəfiq etdi" [1, 192]. Burada haqqında bəhs edilən türbə mütəvəllisi Xan Butay bəy Hacı Şərif bəy oğlunun şəxsiyyəti ilə bağlı geniş məlumat verilməsə də ən azından onun bu vəzifəni icra etməsi ilə həzrəli olan əcdadlarının işini davam etdirməsi məlum olur. Onun icra etdiyi mütəvəllilik vəzifəsi şahlara aid olan vəqfələrə ovqafe təfvizi və ayrı-ayrı şəxslərə aid olan vəqflərə isə

ovqafe şəri deyilirdi. Şəriət ehkamı əsasında tərtib edilmiş vəqfnamə adlı müvafiq sənəd əsasında müəyyən vəqf əmlakını idarə edən şəxs mütəvəlli adlanırdı. Mütəvəlli vəqf əmlakının gəlirlərinin hər hansı istiqamətdə sərf olunmasına aid sərəncamlar vermək səlahiyyətlərinə malik idi [2, 189]. Təəssüf ki əlimizdə türbənin digər mütəvəllilərinin adları barədə məlumat yoxdur. Bu səbəbdən də nə vaxta qədər abidəyə mütəvəllilər təyin edilməsi barədə fikir söyləyə bilmərik. Sadəcə qeyd edə bilərik ki, hazırda abidənin baxıcısı kənd sakini Məhbubə Kərimovadır.

Bişmiş kərpicdən inşa edilən türbə binası daxildən və xaricdən düzbucaqlı plana malikdir. Şeyx Cüneydin məzarı üzərindəki sənduqə bərk ağacdan nəfis işlənmiş şəbəkəli çərçivə içərisinə alınmış, üzərində minbər qoyulmuşdur. Görünür, bu türbədən bir zamanlar məscid kimi istifadə edilmişdir. XVI-XVII yüzilliklərdən dövrümüzə gəlib çatmış şəbəkəçilik sənətinin iki gözəl nümunəsindən biri olan bu sənduqə çox böyük deyildir. Onun uzunluğu 2,12 m, eni 1,20 m, hündürlüyü 1,25 m-dir. Böyük çərçivələrdə ardıcıl taxılmış 52 ədəd kiçik, dördkünc şəbəkə kompozisiyaları bu sənduqənin əsas bəzəyini təşkil edir. Şəbəkələrin ornament motivləri dördbucaqlı ulduz və çoxbucaqlı həndəsi xonçalardan ibarətdir. Şeyx Cüneyd sənduqəsinin şəbəkə bəzəklərinin əsas xüsusiyyətlərindən biri də onun birüzlü olmasıdır [18, 162]. Şeyx Cüneyd türbəsi böyük aşırımlı günbəzlə örtülü imiş. Sonralar ona bitişik məscid tikilməsi və damın dəyişdirilməsi nəticəsində türbə öz əvvəlki görkəmini itirmişdir. Türbənin içərisi əvvəlki kimi qaldığı üçün daha maraqlıdır və burada hər şeydən əvvəl, günbəzə keçid təşkil edən stalaktitlərin məharətlə həlli diqqəti cəlb edir. Türbənin daxili divarları 2 m hündürlüyə qədər bənövşəyi və firuzəyi kaşı ilə örtülmüşdür [18, 174]. Türbənin həm şərq, həm də qərb qapısı üzərində yazılı kitabə olub. Hazırda isə qərb qapısı üzərindəki yeddi sətirdən ibarət ərəb dilində nəsx xətti ilə həkk olunmuş kitabə türbə üzərində qalır. Həmin kitabədə aşağıdakı sətirlər həkk olunmuşdur:

"Bu mübarək və şərəfli imarətin, yüksək sultan, kəramətli və ədalətli xaqan, fars və ərəb hökmdarlarının ağası-Allah onun kölgəsini yelərdən əskik eləməsin-qurunun və suyun rəhmanı, dini, dünyanı, xilafəti və səltənəti əzizləyən, Mustafaya (Məhəmməd peyğəmbərə) mənsub olan şəriət qaydalarını yayan, Murtəzəvi təriqətinin (yəni şiəliyin) əsasını qoyan, minnət və ehsan edən, Allah tərəfindən müvəffəqiyyətlənmiş, ehtiyacsız Allaha təvəkkül eləyən, Sultan oğlu Sultan Əbülmüzəffər şah Təhmasib əl-Hüseyni Bahadurxanın-Allah onun hökmranlığını və sultanlığını daima etsin və hər iki dünyanı onun yaxşı işləri və ehsanı ilə feyzləndirsin, öz qəlbini, biliyini Allaha və bəşər aləminə həsr etməyi ilə həzrətlərindən seçilsin (məxsus qılsın)-hökmranlığı zamanında səadət və əzizlik sahiblərinin ən fəxrlisi, vahid Allahın rəhmətinə qovuşmuş Xacə Fəxrəddin Əhməd Fərəhaninin-yüksək Allah onun şükrlərini, səylərini və yaxşı işlərini qəbul etsin-oğlu, qəbilələrin pənahgahı olan böyük vəzir həzrətləri, Allah rəhmətinə getmiş Ziyaəddin Nizamülmülk oğlu ən yüksək vəzirlərin vəziri, hökmdar və valilərin bəyənilmişi, xalqın bütün üzvlərinin

tədbirçisi, xalqın yaxşı işlərinə zəmin olan əmmamə sahiblərinin xidmətkarı, kəramət sahiblərinin itaət olunmuşu, yaxşı işlər binalarının banisi, ehsan və səy edənlərin çalışqanı, vahid Allahın mehribanlığı ilə seçilmiş, əzizlik və vəzirlik fələkinin günəşi Ağa Məhəmməd, kəramət sahiblərinin sultanı, yetişmiş və bəyənilmişlərin rəhbəri, ariflərin (bilikli adamların) rəisi, düz yolla gedənlərin yol göstərəni, təriqət məsləkində vahid yol seçmiş, həqiqət məmləkətlərinin sahibi, öz razılıqları ilə eyni məslək istəyənlərin müridi, kainatın sahibi, öz fazilliyi (biliyi) ilə dövlətli olan Sutan Şeyx Cüneyd Səfəvinin -Allah onun qəbrini işıqlandırsın və şəhid olduğu yeri haqq eləsin-qəbri üzərində doqquz yüz əlli birinci ilin axırında tikilməsinə müvəffəq olmuşdur." Hicri 951-ci il 1544/1545-ci miladi ilinə müvafiqdir. Kitabədən göründüyü kimi abidəni, məscid-türbəni hicri 951-ci il (1544-1545) ilin axırlarında Şah I Təhmasibin hökmranlığı dövründə onun vəziri Xacə Fəxrəddin Əhməd Fərəhani oğlu Xacə Ziyaəddin Nizamülmülkün oğlu Ağa Məhəmməd tikdirmişdir [15, 83]. B.Dornun fondunda onun dövründə türbə kompleksində mövcud olmuş digər kitabələrin mətnləri saxlanılır. Bu kitabələrdə aşa-ğıdakı mətnlər həkk olunmuşdur:

1. Qəbrin yaxınlığında yerləşən hücrənin yuxarı mərtəbəsində həkk olunmuş kitabədə:

"Əgər dünya bir adamdan ötrü əbədi olsaydı, onda (ölməz) peyğəmbərlər

üçün bu həmişəlik olardı.

Çətin ki, bir adam ölümdən xilas ola, o zaman Məhəmmədin (ə.s.) silahdaşları ölümdən xilas olardılar”.

2. Qəbrin şərq tərəfindəki kitabədə:

“Ey siz inananlar, öz sədəqələrinizi məzəmmət və inciklik ilə boş şeyə puç etməyin. Bu yüksək, mübarək imarətin tikilməsi tarixi” [15, 83].

3. Hücrənin aşağı mərtəbəsində həkk olunmuş kitabə isə belə yazılıb:

“Ey bu kitabəyə baxan, kitabənin və onun sahibinin bağışlanmasını Allahdan xahiş elə”.

4. Şərq divarında həkk olunmuş kitabədə:

“Şeyx Cüneydin-Allah ona rəhmət eləsin-dəfn olunması tarixi və bu işıqlı mübarək binanın tikilməsi tarixi 951-ci ildir. Onu Əbdül-Qəni əl-Vəndami yazdı” [15, 84].

Beləliklə Şeyx Cüneydin şəxsiyyəti, fəaliyyəti ilə bağlı verdiyimiz məlumatlardan aşağıdakı nəticələr hasil olur:

Şeyx Cüneyd Ərdəbil dərgahının Azərbaycan Səfəvi dövlətinə çevrilməsi yolunda bir dönüş nöqtəsi idi.

Ərdəbil dərgahı məhz onun sayəsində yaranışından bəri sahib olduğu dini fəaliyyətində dəyişiklik edərək siyasi yola baş qoydu. Sultan titulu qəbul etməsi də buna əyani sübutdur.

Bayanudurlularla qohumluq bağlarının qurulması isə bu titulun möhürü oldu.

Bu cür bir sima üçün bina edilən və əsrlərdən bəri qorunaraq zamanımıza qədər gəlib çatmış bir türbənin nəinki mühafizə edilməsi, həm də daimi ziyarət çevrilməsi labüddür.

İstər, Şeyx Cüneydin, istərsə də oğlu Şeyx Heydərin ilkin hədəf kimi Şirvanı seçmələri təsadüf deyildi. Onların məqsədi Azərbaycan torpaqlarını, o cümlədən də Şirvanı ehtiva edən vahid bir dövlət qurmaq idi. Sağlıqlarında bu istəklərinə nail ola bilməsələr də Şirvan torpağında dəfn edilmələr ilə əslində xələfləri Şah I İsmayılın və Şah I Təhmasibin gələcəkdə vahid bir Azərbaycan dövləti qurmalarına vəsilə ola bildilər.

**Ədəbiyyat / Kaynaklar / References**


1. Бакиханов А.К. Гюлистан-и Ирам. Редакция, комментарии, примечания и указатели академика АН АзССР З. М. Буниятова. Баку: Элм, 1991, 304 с.
2. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı: Avropa, 2015, 348 s.
3. Бартольд В.В. Сочинения, том II, ч. 1. М.: Издательство *восточной литературы, 1963, 1024 с.*
4. Coşar Z. Höbek kurultayından Safevi devletine Şah İsmail. İzmir: Sergi yayınevi, 2013, 375 s.
5. Çetinkaya N. Kızılbaş türkler. Tarihi, oluşumu ve gelişimi. Ankara: Kripto, 2012, 576 s.
6. Əfəndiyev O. Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
7. Фазлуллах ибн Рузбихан Хунджи. Тарих-и алам-арайи Амини. Перевод с персидского на английский, с английского на русский, введение, приложения и комментарий В.Ф.Минорского. Баку: Элм, 1987, 172 с.
8. Gündüz T. Son Kızılbaş Şah İsmail. İstanbul: Yeditepe yayınevi, 2014, 175 s.
9. Hinz W. Uzun Hasan ve Şeyh Cüneyd (çeviren: T.Bıyıklıoğlu). Ankara: Türk Tarih Kurumu Basımevi, 1992, XV+165 s.
10. Kaplan D. Safeviler ve Kızılbaşlık. Aleviliğin tarihsel temelleri. Ankara: Gece kitaplığı. 2015, 189 s.
11. Kırzıoğlu F. Osmanlılar'ın Kafkas-elleri'ni fethi (1451-1590). Ankara: Türk tarih Kurumu, 1998, 552 s.
12. Musalı N.S. Ərdəbildən Aksaraya uzanan yol: Yusif Həqiqi Baba və Şeyx Cüneyd Səfəvi// Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2012, № 1, s.130-137
13. Musalı N.S. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı: Elm və Təhsil, 2011, 482 s.
14. Nemət M.S. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
15. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том IV. Арабо-персо-тюркоязычные надписи Куба-Хачмазской зоны и Южного Дагестана (VIII-начало XX вв.). Баку, Нурлан, 2008, 168 с.
16. Özdemir İ. Aleviliğin yazılmayan tarihi. Kavramlar-Kaynaklar-On İki İmamlar. Tarih-Sürek-İnanç-İbadet-Edebiyat. Ankara: Kripto, 2014, 312 s.
17. Петрушевский И.П. Ислам в Иране в VII-XV веках (курс лекций). Л.: Издательство Ленинградского Университета, 1966, 400 с.
18. Rasim Əfəndi. Azərbaycan İncəsənəti. Bakı: Şərq-Qərb, 2007, 397 səh./ http://ebooks.azlibnet.az/book-rebZK2EC.html
19. Sümer F. Safevî Devletinin kuruluşu ve gelişmesinde Anadolu Türklerinin rolü (Şah İsmail ile halefleri ve Anadolu Türkleri). Ankara: Türk Tarih Kurumu Basımevi, 1999, IX+265 s.
20. Cüneyd-i Safevi//Türkiye Diyanet Vakfı İslâm Ansiklopedisi 44 ciltte. 8-ci cilt. Cilve-Dârünned ve Ankara: TDV, 1993, s. 123-124
21. Uçan M. Kızılbaş ordusu. İstanbul: Kalender yayınevi, 2013, 264 s.